# AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

# "OTORİNOLARİNQOLOGİYA"

ixtisası üzrə fəlsəfə doktoru imtahanının

# PROQRAMI

Hazırlıq istiqaməti: **"TİBB ELMLƏRİ"**

Proqramın istiqaməti: **3217.01 "OTORİNOLARİNQOLOGİYA"**

**B A K I - 2022**

**OTORİNOLARİNQOLOGİYA**

**ixtisası üzrə fəlsəfə doktoru imtahan proqramı**

**tibb elmləri doktoru, professor V.M. Pənahianın ümumi elmi rəhbərliyi ilə**

**aşağıdakı müəlliflər tərəfindən hazırlanmışdır**


Azərbaycan Tibb Universitetinin
"Qulaq, burun, boğaz xəstəlikləri"
kafedrasının müdiri,
tibb elmləri doktoru, professor — **Pənahian Vəfa Mustafa oğlu**

Azərbaycan Tibb Universitetinin
"Qulaq, burun, boğaz xəstəlikləri"
kafedrasının dosenti, tibb üzrə
fəlsəfə doktoru — **Cəlilov Cabbar Səttar oğlu**

Azərbaycan Tibb Universitetinin
"Qulaq, burun, boğaz xəstəlikləri"
kafedrasının dosenti, tibb üzrə
fəlsəfə doktoru — **Quvalov Şakir İslam oğlu**

Azərbaycan Tibb Universitetinin
"Qulaq, burun, boğaz xəstəlikləri"
kafedrasının dosenti, tibb üzrə
fəlsəfə doktoru — **Qasımov Ayaz Vəli oğlu**

# MƏZMUNU

**Ümumi qaydalar:**

**Bölmə I.** Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri

**Bölmə II.** Fəlsəfə doktoru imtahanı zamanı yoxlanılan bacarıqlar

**Bölmə III.** Fəlsəfə doktoru imtahanı proqramının məzmunu

Fəsil 1. Otorinolarinqologiyanın məzmunu

Fəsil 2. Qulaq, burun, boğaz üzvlərinin obyektiv və subyektiv müayinə üsulları

Fəsil 3. Xəstəliklərin klinikası və diaqnostikası

Fəsil 4. Müasir konservativ müalicə və cərrahi müdaxilələr

**Bölmə IV.** Tədris-metodik və informasiya təminatı

**Bölmə V.** Qiymətləndirmə meyarları

**Bölmə VI.** Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi sualların siyahısı

## ÜMUMİ QAYDALAR

Doktorantura ali təhsil bazasında elmi və elmi-pedaqoji kadr hazırlığını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir. Doktorantura təhsilin ən yüksək pilləsi olaraq, ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktorantura şöbələri vasitəsilə həyata keçirilir.

Qulaq, burun, boğaz xəstəlikləri fənni “Otorinolarinqologiya” ixtisasının 3217.01 – istiqamət proqramı üzrə doktoranturada elmi-pedaqoji kadr hazırlığının variativ hissəsinə aid fundamental fəndir.

“Qulaq, burun, boğaz xəstəlikləri” fənninin öyrənilməsi bakalavr və rezident hazırlığı üzrə əsas təhsil proqramının mənimsənilməsi prosesində doktoranturada yiyələndikləri biliklərin toplusuna əsaslanır.

**Proqramın əsasını fəsillərin əsas müddəaları təşkil edir:**

I fəsil – Otorinolarinqologiyanın məzmunu; II fəsil – Qulaq, burun, boğaz

üzvlərinin obyektiv və subyektiv müayinə üsulları; III fəsil – Xəstəliklərin klinikası və diaqnostikası;  IV fəsil – Müasir konservativ müalicə və cərrahi müdaxilələr.

“Qulaq, burun, boğaz xəstəlikləri” fənni üzrə fəlsəfə doktoru imtahanına daxil edilmiş sualların mənimsənilməsinin nəticələri doktorantların elmi-tədqiqat və peşəkar fəaliyyətləri üçün həlledici əhəmiyyətə malikdir.

“Qulaq, burun, boğaz xəstəlikləri” fənni üzrə fəlsəfə doktoru imtahanı tədris planında və tədris-təqvim cədvəli əsasında təyin edilmiş müddətlərdə keçirilir.

“Qulaq, burun, boğaz xəstəlikləri” fənni üzrə fəlsəfə doktoru imtahanı proqramında hədəf və məqsədlər, müəyyən edilmiş tələblər, məzmun və qiymətləndirmə meyarları təsvir edilmişdir.

“Qulaq, burun, boğaz xəstəlikləri” fənni Otorinolarinqologiya ixtisası üzrə fundamental elmi bazaya malik olub, elmi yaradıcılığın metodologiyası və müasir informasiya texnologiyaları barədə məlumatlı, müstəqil elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyətlə məşğul olmağı bacaran və buna hazır olan gənc alimlərin formalaşmasına imkan yaradır.

# I BÖLMƏ

## ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU

## *İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ*

3217.01 - “Otorinolarinqologiya” ixtisası üzrə doktorantura təhsilinin  hədəfi tibb sahəsində elmi və elmi-pedaqoji kadrların hazırlanması, tədqiqat işlərində müasir elmi metodlara yiyələnmiş yüksək ixtisaslı mütəxəssislər yetişdirmək, həmçinin fənnin öyrənilmə yekunlarına əsasən doktorantın bacarıq səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın məzmunu –** QBB üzvlərin həyat fəaliyyətinin nəzəri əsaslarının tədqiqi, eksperimental modelləşdirmə şəraitində və klinik müşahidələr əsasında patoloji proseslərin, xəstəliklərin yaranma səbəbləri və şəraiti, inkişaf mexanizmləri

və nəticələrinin müəyyənləşdirilməsi, habelə adekvat müalicə üsullarının işlənib hazırlanmasından ibarətdir.

**Tədqiqatın obyekti** – müxtəlif xəstəlik və patoloji proseslərin eksperimental və klinik modellərdə tədbiqi. Patoloji proseslərin, xəstəliklərin əmələ gəlmə səbəblərinin və şəraitinin, inkişaf mexanizmlərinin eksperimental və klinik şəraitdə aparılan tədqiqatlar əsasında aydınlaşdırılması klinik-tibbin inkişafına, yeni müalicə və profilaktika metodlarının işlənib hazırlanmasına zəmin yaradır.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** 3217.01 - “Otorinolarinqologiya” ixtisası üzrə doktorantura təhsili alan elmi-pedaqoji kadrların mənimsəmə nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədləri:**

– elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanına hazırlıq və fəlsəfə doktoru imtahanının verilməsi prosesində 3217.01 - “Otorinolarinqologiya” ixtisası üzrə hazırlıq istiqaməti üzrə Dövlət Ali Təhsıl Standartlarının tələbləri (ali ixtisaslı kadrların hazırlıq səviyyəsi) və təhsil alanların ali təhsil proqramının – doktoranturada elmi-pedaqoji kadrların hazırlanması proqramının mənimsənilməsi prosesində əldə etdikləri faktiki bilik, bacarıq və vərdişlər arasında uyğunluğu təyin etmək;

– doktorantın patoloji proseslərin və xəstəliklərin inkişaf mexanizminin, gedişinin və nəticəsinin ümumi qanunauyğunluqları, ayrı-ayrı xəstəliklərin terapiya və profilaktikası prinsipləri haqqında elmi bilikləri nə dərəcədə mənimsədiyini aşkar etmək;

– doktorantın ümumi nozologiyaya aid olan məsələləri, tipik patoloji proseslərin etiologiyasını, patogenezini, ayrı-ayrı orqan və sistemlərin patologiyasının əsas formalarını, patoloji proseslərin və bir sıra mühüm xəstəliklərin profilaktikası və müalicəsi prinsiplərinin patofizioloji əsaslandırılması bacarığını qiymətləndirmək;

– doktorantın tədqiqat metodlarını müstəqil öyrənmək, xəstəliklərin modelinin

yaradılması və eksperimental terapiyası məsələlərini, o cümlədən müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, əldə olunan bilikləri klinikada tətbiq etməyi bacarmaq; klinik təfəkkürün metodik və metodoloji əsaslarını hazırlamaq qabiliyyətini qiymətləndirmək.

# II BÖLMƏ

## FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı aşağıda sadalanan bacarıqların aşkarlanmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

– müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti.

**Ümumi peşəkar bacarıqlar**:

– otorinolarinqologiya sahəsində müasir tədqiqat metodlarından və informasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata keçirmək qabiliyyəti.

**Peşəkar bacarıqlar:**

– otorinolarinqologiya sahəsində nəzəri, eksperimental və klinik tədqiqatların metodologiyasının mənimsənilməsi;

– elmi tədqiqatlarda patoloji fiziologiya elminin nəzəri əsaslarından istifadə etmək qabiliyyəti.

**Fəlsəfə doktoru imtahanı zamanı doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişləri nümayiş etdirməlidir:**

**Biliklər:**

– ümumi nozologiya haqqında məlumat: məişət amilləri və orqanizmin immun reaktivliyinin xəstəliklərin əmələ gəlməsində, inkişafında və fəsadlaşmasında rolu;

– tipik patoloji proseslərin səbəbləri və inkişaf mexanizmləri, əlamətləri və müxtəlif xəstəliklərin inkişafı zamanı orqanizm üçün əhəmiyyəti;

– orqan və sistemlərin tipik pozulmalarının səbəbləri, inkişaf mexanizmi və əsas əlamətləri;

– insanda tez-tez rast gəlinən xəstəliklərin etiologiyası, patogenezi, simtomları və nəticələri, onların etioloji və patogenetik müalicə prinsipləri;

– patoloji proseslərin öyrənilməsində funksional-diaqnostik metodların mənimsənilməsi;

– tibbin və səhiyyənin inkişafında otorinolarinqologiyanın əhəmiyyəti, onun digər tibbi-bioloji və tibbi fənlərlə əlaqəsi.

**Bacarıqlar:**

– klinik-funksional, laborator, eksperimental və digər müayinələrin təhlilini aparmaq;

– əldə olunan bilikləri elmi-tədqiqat fəaliyyətində tətbiq etmək;

– laborator şəraitdə eksperimenti planlaşdırmaq və aparmaq (müvafiq qaydalara riayət etməklə), təcrübənin nəticələrini işləmək və təhlil etmək, patologiyanın klinik formalarını öyrənmək üçün eksperimentin əhəmiyyətini düzgün qiymətləndirmək;

– xəstəliklərin inkişafında, gedişində və nəticəsində tipik patoloji proseslərin rolunu qiymətləndirmək;

– otorinolarinqoloji müayinə üsullarını mənimsəməklə birlikdə qulaq, burun, boğaz (QBB) üzvlərinin patologiyalarını müəyyən etmək;

– QBB üzlərinin endoskopik müayinəsi metodikasına yiyələnmək və endoskopik əməliyyatları öyrənməkdir ;

– rentgenoqrammalarda burun, burunətrafı ciblərin və gicgah sümüklərinin əsas patologiyalarını təyin etmək;

– kompyuter və maqnit rezonans tomoqrafik müayinələr zamanı patologiyaların aşkarlamaq və differensial diaqnostikasını aparmaq;

– eşitmə qabliyyətinin elektroakustik müayinə üsullarını (audiometriya, timpanometriya, BERA, OAE) öyrənmək və differensial diaqnostikanı aparmaqdır;

– vestibulyar patologiyalı xəstələrdə vestibulyar aparatın müayinə üsulları, diaqnostika, differensial diaqnostika və müalicə prinsipləri;

– otorinolarinqologiyada iltihabı və qeyri-iltihabı xəstəliklərin diaqnostikası və müalicəsi;

– QBB üzvlərində cərrahi əməliyyatların mənimsəməsi və bacarığın təkmilləşməsi;

– QBB üzlərinin profilaktikası yollarını öyrənmək, otorinolarinqoloji ekspertizanı təyin etmək, əlillik dərəcəsini dəqiqləşdirməkdir.

**Vərdişlər:**

– müxtəlif ədəbiyyat mənbələri ilə işləmək, müvafiq problemlər üzrə informasiya axatarışı aparmaq;

– tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək;

– müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək;

– müstəqil patofizioloji tədqiqat aparmaq qabiliyyəti;

– şifahi və yazılı nitqin məntiqi cəhətdən düzgün, əsaslandırılmış və aydın şəkildə qurmaq; fənlərarası qarşılıqlı təsiri həyata keçirmək, tədqiqat məsələlərinin həlli üçün perspektivli nəzəri-metodoloji və elmi-praktik yanaşmaları inkişaf etdirmək qabiliyyəti;

– tədqiqat işinin müxtəlif metodları;

– statistik göstəricilərin qiymətləndirilməsi metodikası, xronoloji təhlili metodları.

## III BÖLMƏ

## FƏLSƏFƏ DOKTORU İMTAHANI PROQRAMININ MƏZMUNU

## FƏSİL 1
## OTORİNOLARİNQOLOGİYAYA GİRİŞ

Otorinolaringologiya fundamental elm və tədris fənni kimi Otorinolarinqologiyanın müasir tibb elmində yeri. Otorinolarinqologiya fənni, vəzifələri və metodları. Otorinolarinqologiyanın digər klinik fənnlərlə elmi əlaqəsi və əhəmiyyəti. Eksperimental və klinik araşdırmaların ümumi prinsipləri və onların nəticələrinin təhlili. Otorinolarinqoloji tədqiqatlarda istifadə olunan müasir metodlar. Modelləşmə, onun növləri, imkanları və məhdudiyyətləri. Xəstəliyin öyrənilməsində və yeni müalicə üsullarının işlənib hazırlanmasında eksperimental terapiya əhəmiyyəti. Müalicə və diaqnostika üsullarının insanın həyat keyfiyyətinə təsirinin öyrənilməsi.

Klinik otorinolarinqologiya haqqında anlayış, onun vəzifələri və perspektivləri, deontoloji aspektləri. *Otorinolarinqologiyanın əsas bölmələri*: surdologiya, vestibulologiya, rinologiya, foniatriya, larinqologiya.

## FƏSİL 2
## QULAQ, BURUN, BOĞAZ ÜZVLƏRİNİN OBYEKTİV VƏ SUBYEKTİV MÜAYİNƏ ÜSULLARI

Elmi araşdırmalar aparılan zamanı əldə edilən nəticələrin dürüstlüyü müayinə üsullarına əsaslanır. Otorinolarinqologiya ixtisasına obyektiv və subyektiv müayinə üsulları mövcuddur. Bir sıra nozologiyaların subyektiv müayinə üsulları tədqiqatlarda mühüm rol oynayır və doktorant tərəfindən mənimsənilməlidir. Elmi-texniki inkişafını nəzərə alaraq subyektiv müayinələrin bir qismi funksional xarakter daşıyır və tədqiqatlarda istifadə olunmalıdır.

Müasir obyektiv müayinə üsulları endoskopik, radioloji, elektroakustik və s. funksional üsullarından ibarətdir. Son zamanlar tədqiqatlarda və praktik səhiyyədə

geniş istifadə olunur. Elmi araşdırmalar zamanı tədqiqatçı bütün obyektiv müayinələrin icrasını və oxunmasını bacarmalıdır.

KT, MRT, USM, EKQ və s. kimi bir sıra müayinələrin "Otorinolaribnqologiya" ixtisası üzrə təhsil alan doktorant tərəfindən mənimsənilməsi vacibdir.

Doktorant böyüklərdə, uşaqlarda və yenidoğulmuşlarda qulaq, burun və boğaz üzvlərinin klinik anatomik xüsusiyyətlərini, fiziologiyasını dərindən bilməlidir.

**Subyektiv müayinə üsulları:**

1. QBB üzvlərinin müayinəsi (ümumi baxış, palpasiya, rinoskopiya, farinqoskopiya, arxa rinoskopiya, vasitəli və vasitəsiz larinqoskopiya, otoskopiya).
2. Akumetriya və eşitmə pasportunun tərtib edilməsi.
3. Vestibulyar apparatın müayinə üsulları (kalorik sınğlar, statik sınaqlar).

**Obyektiv müayinə üsulları:**

1. QBB üzvlərinin endoskopik müayinəsi.
2. Eşitmə qabliyyətinin elektroakustik müayinə üsulları (tonal, nitq və küy audiometriyası, impedansometriya, BERA testi, otoakustik emissiya.
3. Vestibulyar apparatın obyektiv müayinəsi (videonistaqmoqrafiya, stabiloqrafiya, telekorpoqrafiya).
4. Qırtlağın obyektiv müayinəsi (elektromioqrafiya, stroboskopiya, elektrofonatoqrafiya).
5. QBB üzvlərinin ultrasəs, rentgenoloji, KT və MRT müayinələri.

# FƏSİL 3
# XƏSTƏLİKLƏRİN ETİOPATOGENEZİ, KLİNİKASI VƏ DİAQNOSTİKASI

## 3.1. Qulaq xəstəlikləri

Qulaq xəstəliklərinin Beynəlxalq təsnifatı. Xəstəliklərin Beynəlxalq

Təsnifatıyla (XBT-10) birlikdə Otorinolarinqologiyada təklif olunmuş və gündəlik geniş istifadə edilən təsnifatlar. Xarici, orta və daxili qulağın iltihabı xəstəliklərin təsnifatı. Eşitmə qabliyyəti itkisinin təsnifatı. Eşitmə pozulmaların dərəcələrinə görə əlillik dərəcəsinin təyini.

Qulaq xəstəliklərin yaranma səbəbləri və inkişaf mexanizmləri. Xəstəliklərin etiologiyasında virus, bakterial, iltihab, anatomik (burun, udlaq və s.), anadangəlmə və irsi faktorların əhəmiyyəti. Eşitmənin və müvazinətin pozulmalarının formalaşmasında ekzogen, endogen, metabolik və travmatik faktorlarının təsiri. Otoloji xəstəliklərin patogenezi, anatomik quruluşun və fizioloji prosesslərin pozulmaları, vestibulokoxlear apparatın patofiziologiyası.

***Xarici qulağın xəstəlikləri*:** qulaq seyvanının anadangəlmə inkişaf qusurları. Anadangəlmə anomaliyaların etiopatogenezi, klinikası və diaqnostikası. Qulaq seyvanının dinc və müharibə zamanı zədələnmələri. Qulaq seyvanının yanıqları və donmaları. Qulaq seyvanının kəskin və xroniki iltihabı xəstəliklərin yaranma səbəbləri, differensial diaqnostikası və kliniki gedişatı.

***Xarici qulaq keçəcəyinin xəstəlikləri*:** atreziyalar və daralmalar, etiopatogenezi, klinikası və diaqnostikası. Xarici qulaq keçəcəyinin travmaları və yad cisimləri, kliniki gedişatı və formaları. Xarici qulaq keçəcəyinin kəskin və xroniki ilihabı xəstəlikləri, etiopatogenezi, klinikası və differensial diaqnostikası.

***Orta qulağın xəstəlikləri*:** xəstəliklərin Beynəlxalq təsnifatı. Orta qulağın anadangəlmə inkişaf anomaliyaları, zədələnmələri, onların təsnifatı. *Kəskin orta otitlər*: növləri, etiologiyası, kliniki gedişatı və ağırlaşmalar. *Mastoiditlər*: formaları, klinikası, diaqnostikası və fəsadları. *Uşaqlarda antrit. Otogen kəllədaxii ağırlaşmalar*: infeksiyanın kəllə daxilinə yayılma yolları, ağırlaşmaların etiopatogenezi, kliniki gedişatı, differensial diaqnostikası və fəsadları.

***Orta qulağın xroniki xəstəlikləri***: orta qulağın iltihabı və qeyri-iltihabı xəstəlikləri, etiopatogenezi, klinikası, differensial diaqnostikası və ağırlaşmaları.

***Daxili qulaq xəstəlikləri***: *koxlear və vestibulyar aparatın xəstəlikləri*: Menyer xəstəliyi, XPPB, labirintitlər, damar mənşəəli vestibulyar disfunksiya, vestibulyar neyronit, eşitmə sinirinin nevrinoması, sensonevral ağıreşitmə. Xəstəliklərin

etiopatogenezi, yaranma nəzəriyyələri, differensial diaqnostikası və fəsadları.

*Qulağın qeyri-spesifik xəstəlikləri*: diaqnostikası və yanaşma prinsipləri.

*Qulağın və gicgah sümüyünün travmaları*: klinikası və diaqnostikası.

**3.2. Burun və burunətrafı ciblərin xəstəlikləri**

Burun və burunətrafı ciblərin xəstəliklərinin Beynəlxalq təsnifatı. Rinitlərin və sinusitlərin təsnifatı.

Xarici burunun, burun boşluğunun və burunətrafı ciblərinin anadangəlmə inkişaf qusurları. Anadangəlmə anomaliyaların etioloji faktorları, klinik gedişatı və proqnozu.

*Xarici burunun xəstəlikləri*. Burunun ithihabı xəstəlikləri. Xarici burunun travmaları, burun sümüklərinin sınığları, açıq və qapalı zədələnmələri.

*Burun boşluğunun xəstəlikləri*. Burun boşluğunun yad cisimləri. Rinolitlər. Etiologiyası və diaqnostikası. Burun arakəsməsinin travmatik zədələnmələri, burun qanaxmaları, arakəsmənin absessləri və hematoması. Qanaxmaların etiologiyası, klinikası və diaqnostikası. Burun arakəsməsinin əyrilikləri, etiologiyası, formaları, klinikası, diaqnostikası və gözlənilən fəsadlar. Burun boşluğunun anadangəlmə qusurları: disgeneziyası, xoanaların atreziyası. Etiopatogenezi, kliniki gedişatı və diaqnostikası.

*Rinitlər*. Rinitlərin etiologiyası, patogenezi, klinikası, diaqnostikası və differensial diaqnostikası. Rinitlərin beynəlxalq təsnifatı.

*Burunətrafı ciblərin xəstəlikləri*. Kəskin və xroniki sinusitlər: etiologiyası, patogenezi, klinikası, diaqnostikası və differensial diaqnostikası. Sinusitlərin beynəlxalq təsnifatı. Sinusitlərin fəsadları: rinogen orbital və kəllədaxili ağırlaşmalar. Ağırlaşmaların etiologiyası, patogenezi, kliniki gedişatı, diaqnostikası və differensial diaqnostikası.

**3.3. Udlaq xəstəlikləri**

*Udlağın anadangəlmə inkişaf qusurları*. Anomaliyaların növü, etiopatogenezi, kliniki gedişatı və diaqnostikası. Udlağın travmatik zədələnmələri və yad cisimləri. Piroqov-Vensan-Valdeyer limfa xəlqəsinin anatomiyası, fiziologiyası və xəstəlikləri. Badamcıqların funksiyası və fəsadları.

*Kəskin tonzillitlər*: xəstəliyin etiopatogenezi, təsnifatı, kliniksı, diaqnostikası, differensial diaqnostikası və ağırlaşmaları. Anginaların spesifik formaları, onların risk qrupları.

*Xroniki tonzillitlər*: tonzillitlərin beynəlxalq təsnifatı, etiopatogenezi, klinikası, diaqnostikası və differensial diaqnostikası. Xroniki tonzillitlərin digər orqan və sistemlərlə olan yanaşı xəstəlikləri və yanaşma üsulları.

*Udlağın selikli qişasının xəstəlikləri*: kəskin və xroniki faringit. Faringitlərin təsnifatı, etiologiyası, patogenetik aspetləri, diaqnostikası və differensial diaqnostikası və proqnozu.

Udlaq badamcığının xəstəlikləri. *Adenoid veqetasiyası*: badamcığın hipertrofiyası, etiologiyası, patogenezi, klinikası və diaqnostikası. Kəskin və xroniki adenoiditlər: yanaşma prinsipləri.

*Dil badamcığının və tubar badamcıqların iltihabı*: xüsusiyyətləri və rastgəlmə tezliyi.

### 3.4. Qırtlaq xəstəlikləri

Qırtlağın funksiyaları. Səsi yaratma funksiyası və foniatriyanın vəzifələri, foniatrik kabinetlərin təşkili.

Qırtlağın anadangəlmə inkişaf qusurları, zədələnmələri, yad cisimləri və yenitörəmələri.

*Qırtlağın iltihabı xəstəlikləri*: kəskin və xroniki laringitlərin təsnifatı, etiologiyası, patogenezi, kliniki gedişatları, diaqnostikası və differensial diaqnostikası.

*Qırtlağın sinir xəstəlikləri*. Qırtlağın parez və ifliclərinin təsnifatı, etiologiyası və patogenezi, klinikası, diaqnostikası və differensial diaqnostikası.

## FƏSIL 4
## MÜASİR KONSERVATİV MÜALİCƏ VƏ CƏRRAHİ MÜDAXİLƏLƏR

### 4.1. Qulaq xəstəliklərinin müalicəsi.

Xarici qulaqdan yad cisimlərin xaric edilməsi. Qulağın zədələnmələri, yanığları və donmaları  zamanı ilk və ixtisaslandırılmış yardımım təşkili və icra edilməsi. Yüngül, orta və ağır kəllə-beyin travmaları və gicgah sümüklərin sınıqları zamanı təcili və təxirəsalımnaz yardım.

Qulağın anadangəlmə qüsurları və irsi xəstəliklərin konservativ və cərrahi müalicəsi. Anomaliyaların profilaktikası və tibb-genetik məsləhət.

*Xarici otitlərin müalicə tədbirləri*: qulaq seyvanının və xarici qulaq keçəcəyinin ilhihabı xəstəliklərinin müalicə üsulları.

*Kəskin və xroniki orta otitlərin (mastoiditlərin) müalicəsi*: medikamentoz, fizioterapevtik, konservativ və cərrahi. Otitlərin fəsadları və ağırlaşmaları: otogen kəllədaxili ağırlaçmaların müalicə prinsipləri, ağırlaşmalar zamanı cərrahi əməliyyata təcili, təxirəsalınmaz və planlı yardım.

Qulağın qeyri-iltihabı xəstəliklərinin konservativ və cərrahi  müalicə prinsipləri. Orta və daxili qulaq xəstəliklərin müalicəsi (vestibulyar və koxlear aparatın müalicə üsulları, eşitmənin protezləşdirilməsi, koxlear implantasiya).

**4.2. Burun və burunətrafı ciblərin xəstəliklərinin müalicəsi.**

Xarici burunun zədələnmələri, yanıqları və donmaları zamanı ilk yardım. Burunun yad cisimləri və xaric edilmə üsulları. Xarici burunun iltihabı xəstəliklərinin müalicəsi. Burun qanaxmaları. Qanaxmaların saxlanması (konservativ və cərrahi). Nazal likvoreya (aradan qaldırılma yolları).

Burunun və burunətrafı ciblərin anadangəlmə qüsurların və irsi xəstəliklərin müalicəsi və profilaktikası. Anomaliyalarla olan ailələrin tibbi-genetik məsləhəti.

Burun apakəsmənin cərrahi müalicəsi (septoplasika və selikli qişaaltı rezeksiyası).

Kəskin və xroniki rinitlərin konservativ və cərrahi müalicə üsulları. Burun balıqqulaqlarına müasir müdaxilələr.

Kəskin və xroniki sinusitlərin konservativ, fizioterapevtik və cərrahi müalicə üsulları. Burunətrafı ciblərdə endoskopik, ekstranazal və endonazal əməliyyatlar.

Sinusitlərin fəsadları və rinogen kəllədaxili ağırlaşmalar zamanı planlı, təxirəsalınmaz və təcili yardım.

**4.3. Udlaq xəstəliklərinin müalicəsi.**

Udlağın yad cisimləri, yanıqları və zədələnmələri zamanı aparılan müalicəvi tədbirlər. Udlağın, burun-udlağın və qırtlaq-udlağın anadangəlmə inkişaf anomaliyalarının müalicə üsulları və icra texnikası.

Adenoidlərin müalicəsi və cərrahi əməliyyatı. Əməliyyata göstərişlər və əks göstərişlər. Dil və boru badamcıqlarının müalicə növləri.

Anginaların müalicəsi və profilaktikası. Spesifik anginaların müalicəsinə yanaşmalar. Xroniki tonzillitin konservativ və cərrahi müalicəsi. Konservativ müalicənin seçmə taktikası və cərrahi müdaxilələrin növləri.

Kəskin və xroniki faringitlərin müalicə üsulları. Faringitin formasından asılı olaraq konservativ və ya cərrahi üsulun seçimi.

Yuxu zamanı apnoenin cərrahi müalicəsi.

**4.4. Qırtlaq xəstəliklərinin müalicəsi.**

Qırtlağın yad cisimləri, zədələnmələri və yanıqları zamanı aparılan müalicəsi tədbirlər (təcili və təxirəsalınmaz yardım).

Qırtlağın və səs tellərinin anadangəlmə və irsi xəstəliklərin müalicə metodları.

Kəskin və xroniki laringitlərin müalicə üsulları. Kəskin epiqlottitin müalicəsi.

Qırtlağın və səs tellərinin polipinin, papillomatozunun və müğənni düyünlərinin cərrahi müalicə üsulları.

İntubasiya, konikotomiya və traxeostomiyanın icra texnikası, onların icrasına göstərişlər və əks göstərişlər, gözlənilən fəsadlar və fəsadların aradan qaldırılma üsulları.

Qırtlağın xoş və bəd xassəli yenitörəmələrində müalicə taktikasının seçimi.

Qırtlağın rezeksiyası (göstərişlər, əks göstərişlər, fəsadlar) və rezeksiyadan sonra qırtlağın rekonstruksiyası.

# IV BÖLMƏ

## TƏDRİS-METODİK VƏ İNFORMASİYA TƏMİNATI

## *Əsas ədəbiyyat*


1. Ağayeva N.M., Ağayev H.B. “Otorinolarinqologiya”. Dərslik. Bakı, 2009. 670 səh.
2. Qasımov. A.V. “Rezidentlər üçün situasion məsələlər”. Dərs vəsaiti. Bakı, 2022. 261 səh.
3. Qasımov C.L. “Qulaq, burun, boğaz xəstəlikləri fənnindən test və situasion məsələlər”. Dərs vəsaiti. Bakı, 2015. 222 səh.
4. Qasımov Y.Ə. “Qulaq, burun və boğaz vəstəlikləri”. Dərslik. Bakı 1980 (2018). 327 səh.
5. Quvalov Ş.İ. “Burun və burunətrafı ciblərin xəstəlikləri”. Dərs vəsaiti. Bakı, 2022. 250 səh.
6. Pənahian V.M. “Qulaq xəstəlikləri”. Dərs vəsaiti. Bakı, 2020.
7. Talışinskiy Ə.M., Palçun V.T., Maqomedov M.M., Talışinskiy A.Ə., Luçixin L.A. “Otorinolarinqologiya”. Dərslik. Moskva, “Qoetar-Med”, 2018. 618 səh.
8. Talışinskiy Ə.M. “Qulaq mənşəli kəllədaxili ağırlaşmalar və sepsis”. Dərs vəsaiti. Bakı, 1998. 67 səh.
9. Nihat Çakir. “Kulak, burun ve boğaz hastalıkları”. Dərslik. İstanbul, 2001. 453 səh.
10. Пальчун В.Т., Магомедов М.М., Лучихин Л.А. «Оториноларингология”. Dərslik. Москва 2013. 584 стр.
11. Hans Behrbohm. //Ear, nose snd throath diseases//. Shtuttgart – Newyork, 2016. 776 pages.


## ƏLAVƏ ƏDƏBİYYAT


1. Бабияк В.И., Воронов В.А., Тулкин В.Н. «Редкие болезни». Р.О. 2016. №3 (82). С 16-23.
2. Богомильский М.Р., Чистякова В.Р. «Деская оториноларингология». Москва, 2002. 432 стр.
3. Левин Л.Т., Тёмкин Я.С. «Хирургические болезни уха». Медицинская литература, Москва 2002. 212 с.
4. Панахиан В.М., Крюков А.И., Расулов Э.М. «Справочник врождённых и

наследственных заболеваний в оториноларингологии». Баку – 2002. - 171с.

5. Стратиева О.В. «Клиническая анатомия уха». Москва, 2004. 270 с.
6. McKusick M.D. //Mendelian inheritance in man//. The John Hopkins University press. Baltimore & London. 1992. - 117p.

**İnternet mənbələri**

1. **https:**//fnkcrr.ru/elib/resource20.pdf

# V BÖLMƏ

## QİYMƏTLƏNDİRMƏ MEYARLARI

### Metodik göstərişlər

**Doktorantların** 3217.01 "Otorinolarinqologiya" ixtisas fənni üzrə ali ixtisaslı kadrların hazırlanması üçün fəlsəfə doktoru imtahanı proqramı üzrə attestasiyası şifahi imtahan şəklində aparılır. Doktorantın fəlsəfə doktoru imtahanına hazırlığı "Qulaq, burun, boğaz xəstəlikləri" fənni üzrə mühazirə və təcrübə məşğələləri dövründə, həmçinin auditoriyadankənar saatlarda müstəqil iş çərçivəsində həyata keçirilir.

**Qiymətləndirmə meyarları.** İmtahan zamanı doktorant proqrama daxil edilmiş suallara ətraflı cavab verməlidir. İmtahan zamanı komissiya əlavə suallar da verə bilər.

***Cavab zamanı doktorant sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:***

– ümumi nozologiya haqqında məlumat: məişət amilləri və orqanizmin immun reaktivliyinin xəstəliklərin əmələ gəlməsində, inkişafında və fəsadlaşmasında rolu; tipik patoloji proseslərin səbəbləri və inkişaf mexanizmləri, əlamətləri və müxtəlif

xəstəliklərin inkişafı zamanı orqanizm üçün əhəmiyyəti; orqan və sistemlərin tipik pozulmalarının səbəbləri, inkişaf mexanizmi və əsas əlamətləri; patoloji proseslərin öyrənilməsində eksperimental metodun (heyvanlarda xəstəliklərin və patoloji proseslərin modelləşdirilməsi) əhəmiyyəti; onun imkanları, məhdudiyyətləri və perspektivləri.

– klinik-laborator, eksperimental, funksional və digər müayinələrin kliniki təhlilini aparmaq; heyvanlarda eksperimental tədqiqatları planlaşdırmaq və aparmaq (müvafiq qaydalara riayət etməklə), təcrübənin nəticələrini işləmək və təhlil etmək, patologiyanın klinik formalarını öyrənmək üçün eksperimental metodun əhəmiyyətini düzgün qiymətləndirməyi bacarmaq;

– müxtəlif ədəbiyyat mənbələri ilə işləmək, müvafiq problemlər üzrə informasiya axatarışı aparmaq; tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək; müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini təhlil etmək və qiymətləndirmək.

Cavabın tamlığı planlaşdırılan nəticələrin qiymətləndirmə göstəricilərinə əsasən təyin edilir.

Elmi ixtisas üzrə fəlsəfə doktoru qəbul imtahanı komissiyasının üzvləri (qapalı iclasda açıq səsvermə yolu ilə) **aşağıdakı meyarları rəhbər tutaraq** hər bir sualın cavabını beş ballıq sistem əsasında **5 - "əla", 4 - "yaxşı", 3 -"kafi" və ya 2 -"qeyri-kafi"** kimi qiymətləndirirlər. Mübahisəli vəziyyət yaranan hallarda imtahan komissiyasının sədri həlledici səsə malikdir.

| Ballar | Qiymətləndirmənin meyarları |
|---|---|
| 5 (əla) | Doktorant öz fənnini dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu tam açıqlayır. Doktorant otorinolarinqologiya ixtisası üzrə yerli və xarici tədqiqatçıların işləri, ümumi nozologiya, tipik patoloji proseslər, orqan və sistemlərin patologiyası haqqında dərin biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla hərtərəfli tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif |

| | |
|---|---|
| | doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlili qiymətləndirə bilir. |
| 4 (yaxşı) | Doktorant otorinolarinqologiya fənnini dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu açıqlayır. Doktorant otorinolarinqologiya ixtisası üzrə yerli və xarici tədqiqatçıların işləri, ümumi nozologiya, tipik patoloji proseslər, orqan və sistemlərin patologiyası haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla kifayət qədər tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlili qiymətləndirə bilir. |
| 3 (kafi) | Doktorant otorinolarinqologiya fənnini qismən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu əsasən açıqlayır. Doktorant otorinolarinqologiya ixtisası üzrə yerli və xarici tədqiatçıların məlumatları, ümumi nozologiya, tipik patoloji proseslər, orqan və sistemlər haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla yarımçıq tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant nəzəriyyəni, elmi tədqiqatların ədəbiyyat məlumatları əsasında təhlili qiymətləndirməkdə çətinlik çəkir. |
| 2 (qeyri-kafi) | Doktorant sualın məzmununu kifayət qədər açıqlamır və otorinolarinqologiya fənnini mənimsədiyini nümayiş etdirə bilmir. Doktorant otorinolarinqologiya ixtisası üzrə yerli və xarici məlumatlar, xəstəliklərin klinikası, diaqnostikası və müalicə prinsipləri haqqında minimum biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla minimum tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlili qiymətləndirə bilmir. |

# VI BÖLMƏ

## FƏLSƏFƏ DOKTORU İMTAHANINA HAZİRLAŞMAQ ÜÇÜN NÜMUNƏVİ SUALLARIN SİYAHISI

1. Otorinolarinqologiyanın məzmunu, digər fənnlərlə əlaqəsi, nəzəri və praktik təbabət üçün əhəmiyyəti.
2. Qulaq, burun və boğaz üzvlərinin anatomiyası. Uşaqlarda QBB-üzlərinin anatomik xüsusiyyətləri.
3. Qulaq, burun və boğaz üzvlərinin fizioligiyası. Nitq və tənəffüsün fiziologiyası. Koxlear və vestibulyar aparatın fiziki xüsusiyyətləri. Eşitmə nəzəriyyələri.
4. Qulağın və yuxarı tənəffüs yollarının müayinə üsulları: instrumental, laborator, funksional-diaqnostik müayinələr (endoskopiya, kopyuter və maqnit rezonans tomoqrafiya).
5. Eşitmə qabliyyətinin müasir müayinə üsulları: audiometriya, timpanometriya, çağrılmış potensiallar, BERA testi, otoakustik emissiya, uşaqlarda eşitmənin müayinəsinin xüsusiyyətləri.
6. Vestibulyar apparatın müayinə üsulları: fizioloji və patofizioloji reaksiyalar, sınaqlar, elektron, statik və dinamik reqistrasiya cihazlarıyla aparılan müayinələr.
7. Xarici və orta qulağın iltihabı xəstəlikləri: etiologiyası, patogenezi, klinikası, diaqnostikası, müalicə prinsipləri.
8. Otogen kəllədaxili ağırlaşmalar: etiologiyası, infeksiyanın kəllənin daxilinə yayılma yolları, differensial diaqnostikası və təxirəsalınmaz yardımın prinsipləri.
9. Daxili quağın xəstəlikləri: ağıreşitmə və karlıq (ağıreşitmənin dərəcələri), vestibulyar aparatın patologiyaları.
10. Burun və burunətrafı ciblərin xəstəlikləri: etiologiyası, patogenezi, klinikası, diaqnostikası və müalicə prinsipləri.
11. Rinogen kəllədaxili ağırlaşmalar: etiologiyası, infeksiyanın kəllənin daxilinə yayılma yolları, differensial diaqnostikası və təxirəsalınmaz yardımın prinsipləri.
12. Udlağın xəstəlikləri: etiologiyası, patogenezi, klinikası, diaqnostikası, müalicə prinsipləri. Anginalar və xroniki tonzillit. Təsnifatı, differensial diaqnostikası, ağırlaşmaları və müalicəsi. Udlaq xəstəlikləri, onların təsnifatı və differensial diaqnostikası. Udlaq badamcının hipertrofiya, dərəcələri və müalicə üsulunun seçilmə prinsipləri.
13. Qırtlağın xəstəlikləri: etiologiyası, patogenezi, differensial diaqnostikası və müalicəsi. Səs pozulmaları, foniatriya. Tənəffüsün pozulmaları zamanı təcili və təxirəsalınmaz yardım. Traxeostomiyanın növləri, icra texnikası və ağırlaşmaları.

14. Traxeya və qida borusunun xəstəlikləri: etiologiyası, patogenezi, klinikası, diaqnostikası və müalicəsi.
15. Poliklinik otorinolarinqologiya. Əlillik dərəcələri. Dinc və müharibə zamanı otorinolarinqoloji ekspertizasının təşkili.